# Qələbə bayraqdarları – xüsusi təyinatlılar!

***"Ölkəmizdə Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasından 23 il keçir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu münasibətlə aprelin 30-da Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində şəxsi heyət qarşısında çıxışı zamanı bildirdi ki, 23 il əvvəl ümummilli lider Heydər Əliyevin fərmanı ilə Azərbaycanda Xüsusi Təyinatlı Qüvvələr yaradılmışdır. Ulu öndər bu fərmanı imzalamaqla növbəti dəfə böyük uzaqgörənlik göstərmişdir. Xüsusi Təyinatlı Qüvvələrin yaradılması II Qarabağ müharibəsindəki tarixi zəfərimizdə də özünü sübut etdi". Hərbi ekspert Ədalət Verdiyev bu açıqlamasının davamında bildirdi:***

– Xüsusi Təyinatlı Qüvvələrin yaranmasının 23-cü ildönümü münasibətilə bu hərbi birləşmənin şəxsi heyətini ürəkdən təbrik edən Ali Baş Komandan İlham Əliyev onlara yeni uğurlar, yeni qələbələr arzulayaraq dedi: "Xüsusi təyinatlıların Vətən müharibəsindəki Qələbəmizdə çox böyük payı var. Mən Ali Baş Komandan kimi bunu bilirəm, bu barədə Azərbaycan ictimaiyyətinə də öz sözlərimi demişəm. Bütün Azərbaycan xalqı bunu bilir və düşmən də bunu bilir. Bu gün bizim Ordumuz müharibə dövründəki ordumuzdan daha da güclüdür, daha da qüvvətlidir".

Doğrudan da, Vətən müharibəsinin ən ağır yükünü üzərinə götürən XTQ Ali Baş Komandan İlham Əliyevin Qarabağ və Zəngəzurla bağlı planlarını müvəfəqiyyətlə həyata keçirdi. Əsl döyüşçü obrazını qəlbimizə, beynimizə və tariximizə əbədi olaraq həkk edən Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrimiz ilə hər birimiz fəxr edirik. XTQ ən riskli və cəsarətli xüsusi əməliyyatları yerinə yetirən qoşun növü kimi hər birimizin qürur mənbəyidir.

Ali Baş Komandanın XTQ-nin 40-a yaxın hərbi qulluqçusunu "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görməsi, hər bir çıxışında XTQ-nin II Qarabağ müharibəsindəki əvəzolunmaz rolunu qeyd etməsi və ya hər imkanda onlarla şəkil çəkdirib səmimi söhbət etməsi, əslində çox şeydən xəbər verir. Ali Baş Komandanın Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin yaranmasının 23 illiyinə həsr olunan tədbirdə də iştirak etməsi dövlət başçısının bu qoşun növünün Ordumuzun qüvvət və qüdrətinin yüksəldilməsində roluna və xidmətinə verdiyi önəmin növbəti göstəricisi oldu.

**II Qarabağ müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətinin bir çox uğurlu əməliyyatları ilə işğal altında olan ərazilərin azad edilməsində ən mühüm rol oynadığını yada salan hərbi ekspert daha sonra dedi:**



ildən sonra düşmənlərimizin canına və ruhuna ömürlük hakim kəsilən XTQ qorxusunu, Vətən müharibəsi təcrübəsini və 2021-ci ilin "Qarakilsədə dəhliz sərgüzəştlərini" nəzərə alsaq, XTQ kabusunu Ermənistanın canından çıxarmaq yaxın onilliklərdə mümkün olmayacaq.

Torpaqlarımızın düşmən tapdağından azad olunmasında XTQ-nin misilsiz xidmətlərini heç bir zaman unuda bilmərik. Buna mənəvi haqqımız da yoxdur. Yarandığı gündən bir dəfə də olsun, düşmən önündə gözünü qırpmayan, həyatı təhlükəsi olsa belə, bir addım geri atmayan XTQ-miz xalqımızın Zəfər və Qələbə rəmzidir. Vətən müharibəsində Azərbaycan XTQ-si bir neçə yeni silahlı mübarizə metodları tətbiq etməklə hərb tarixinə yeniliklər gətirdi. Məhz bu yeniliklər sayəsində Azərbaycanımıza və qürurumuz olan XTQ-mizə göstərilən diqqət və maraq hər keçən gün artmaqdadır.

Tam fərqli həyat, döyüş və mənəviyyat fəlsəfəsinə malik XTQ-miz Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində müstəsna rol oynamaqla, xalqımızın və onun dostlarının qəlbində özünə əbədi və möhtəşəm bir abidə qurub. Bu abidə Vətən sərhədlərinə sipərdir, bu abidə düşmənə kabus, dostlara güvəncdir, bu abidə beynəlxalq və regional təhlükəsizliyə ən böyük töhfədir.

Bizim ən böyük sərvətimiz Azərbaycan xalqıdır, bu xalqın ən dəyərliləri isə Vətəni qanı və canı bahasına düşməndən azad edən



– Prezident İlham Əliyevin söylədiyi kimi, xüsusi təyinatlılar müharibə zamanı ən çətin ərazilərdə, ən mürəkkəb iqlimdə, ən təhlükəli tapşırıqları icra etdi. Deməli olar ki, bütün genişmiqyaslı döyüş əməliyyatlarında, o cümlədən Cəbrayıl, Füzuli, Hadrut və Şuşanın işğaldan azad edilməsində əsas rol XTQ-yə məxsus oldu. Bundan əlavə, qəhrəman XTQ-miz Qubadlı rayonunun və Laçının bir çox yaşayış məntəqələrinin azad edilməsində yaxından iştirak etdilər.

Müharibədən sonrakı müddətdə də XTQ-miz düşmən təxribatlarına qarşı fəaliyyətlərinə fasilə verməyib. Keçən il noyabrın 16-da Qaragöl istiqamətində düşmən təxribatlarına XTQ-mizin verdiyi layiqli cavabı işğalçı ölkənin hərbi-siyasi rəhbərliyini uzun müddət unutmayacaq.

Azərbaycan XTQ-si Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlar ilə adını həm hərb tarixinə, həm də xalqımızın əbədi qan yaddaşına qızıl hərflərlə yazdırdı. Hazırda bir çox ölkələrin hərbi beyin mərkəzləri Azərbaycan XTQ-sinin müharibədəki fəaliyyətlərini araşdırır, onların həyata keçirdiyi əməliyyatların detallarını xarici hərbi təhsil müəssisələrinin tədris materiallarına əlavə edirlər.

23 il əvvəl XTQ yarananda kimsə II Qarabağ müharibəsini, bu müharibənin Şuşa zəfəri ilə yekunlaşacağını, müharibədə ən əhəmiyyətli qələbələri xüsusi təyinatlılarımız qazanacağını, hər bir azərbaycanlının ən böyük arzularını məhz XTQ-nin reallaşacağını ehtimal edə bilməzdi. Xüsusi Təyinatlı Qüvvələr yaranan gündən Azərbaycanın döyünən ürəyi, vuran qolu, görən gözü oldu. İlk dəfə 1997-ci ildə başlayan uğurlu XTQ ənənəsi, 2012-ci ildən daha da aktivləşdi, 2016-cı ilin Aprel döyüşlərində isə düşmənə özünün imkanlarının bir hissəsini nümayiş etdirdi. Bu 4 il ərzində XTQ geniş audiotoriyanın bilmədiyi və eşitmədiyi çoxsaylı əməliyyatlardan daim üzüağ çıxdı. 2012-ci

hərbçilərimizdir. XTQ-nin hər bir üzvü belə qəhrəmanlıqlar nümayiş etdirən və buna daim hazır hərbçilərdir. Müharibədə çox sayda XTQ-də xidmət edən hərbçilərimiz düşmən önündə geri addım atmaqdansa son nəfəsinə qədər döyüşüb şəhid olmağı seçdilər. Bu qəhrəmanlarımızın heç birini unutmadıq, unutdurmarıq da.

**2020-ci sentyabrın 27-də başlayan Vətən müharibəsində Xüsusi Təyinatlı Qüvvələrimizin hərb tarixinə şərəflə yazılan böyük qəhrəmanlıqlar nümayiş etdirdiyini vurğulayan Ədalət Verdiyev açıqlamasının sonunda bildirdi:**

– Ali Baş Komandan xüsusi təyinatlılar qarşısındakı çıxışında, haqlı olaraq, bir daha xatırlatdı: "Bizim bütün əsas həlledici əməliyyatlarımızda xüsusi təyinatlılar ön sırada idilər. Digər hərbi birləşmələr ilə birlikdə şəhər və kəndlərimizi azad edən xüsusi təyinatlıların rolunu mən xüsusilə vurğulamaq istəyirəm. Uğurlu əməliyyatlardan sonra yolumuz Şuşaya açıldı. Bizim aslanlarımız, igidlərimiz olmayan yerdə yol açdılar, öz əlləri ilə, öz ayaqları ilə, öz sinələri ilə. Bu gün Şuşaya gələn hər bir insan, sadəcə olaraq, məəttəl qalır - bu alınmaz qalanı Azərbaycan övladları necə aldılar. Hər dəfə Şuşaya Zəfər yolu ilə gedəndə hər bir insan bu haqda fikirləşir".

Qürurumuz və döyünən ürəyimiz olan XTQ-nin yaranma günündə, bizim bükülən qamətimizi düzəldən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik. Onların əbədi xatirəsi daim bizim qəlbimizdə yaşayacaq. Əlillərimizə, sağ qalan və xidmətə yeni qəbul edilən gələcək qəhrəmanlarımıza isə ən gözəl arzularımızı çatdırırıq.

Ali Baş Komandanımız, Silahlı Qüvvələrimiz, xüsusilə də yaranma gününü qeyd etdiyimiz qəhrəman XTQ-miz sayəsində Azərbaycan qalib ölkədir, biz isə qalib xalqıq!

***Hazırladı: T.AYDINOĞLU, "Xalq qəzeti"***